# Masallının termal suları və onlardan səmərəli istifadə yolları

**Coğrafiya elmləri doktoru, professor Neron Babaxanov Azərbaycanda, Türkiyədə, Rusiyada, Qazaxıstanda termal və mineral sulardan əhalinin sağlamlığının bərpasında səmərəli istifadə etmələri haqda məzmunlu, çoxsaylı elmi və publisistik yazıları ilə "Respublika" qəzeti səhifələrində tez-tez çıxışlar edir. Onun təqdim etdiyi "Masallının termal suları və onlardan səmərəli istifadə yolları" adlı məqaləsində Masallı rayonunun mineral suları, onlardan səmərəli istifadə istiqamətləri, göstərilən şəfa mərkəzinin Avropa standartlarına cavab verməsi üçün əməli təklifləri irəli sürür.**

Ərkivan termal suyunun Biləş çayı yatağından 210 metr məsafədə 27 çıxışı olub, bunun 22-si termal, 5-i isə mülayim isti sudur. Termal suların əsas hissəsi Biləş çayının sağ sahilində, qismən az isti olanları isə göstərilən çayın sol sahəsində yerləşir. Ərkivan termal suların orta hərarəti 50, mülayim isti olanların hərarəti isə 18-20-yə bərabərdir. Əsas istifadə olan Ərkivan istisuyunun debiti 627 min l/sutkaya bərabər olub, suyun hərarəti daima 50$^{0}$C təşkil edir. Keçən əsrin 50-ci illərində göstərilən termal suların əsas mənbəyində 12 vanna otağı fəaliyyət göstərirdi. Azərbaycanın cənub bölgələrində yerləşən Ərkivan termal sulara, ildə 6 min nəfər xəstə sağlamlıqlarını bərpa etmək üçün gəlirmişlər. Ərkivan termal su mənbəyindən 500 metr qərbdə Biləş çayının sağ sahilindən 30 metr məsafədə 20 çıxışı olan debitə 1 600 min l/gün hərarəti 63-64$^{0}$C olan Donuzitən termal su mənbəyi yerləşir. Ərkivandan 2,5 km qərbə Biləş çayının sahilində 35 metr məsafədə 17 çıxışı olan, tərkibində çoxlu metan qazı olan Qotursu yerləşir, onun debitə 4 000 min l/sutkaya bərabərdir.

Ərkivandan 3 km cənub-qərbə Mişarçay termal su mənbəyinin debitə 120 min l/sutka, hərarəti 31-45 olub, 100 metr məsafədə 7 çıxışı vardı, metan tərkiblidir.

Sahəsi 867 kvadratkilometr olan Masallı rayonu ərazisində hazırda 80 müstəqil çıxışı olan aşağıdakı termal və mülayim isti su mənbələrindən debitə 4000 min l/gün hərarəti 60$^{0}$C olan, 25 kvad-



ratkilometr ərazidə yerləşən metan tərkibli, az miqdarda yod və brom tərkibli Qotursu, hərarəti 40-43 olan Murodsu (Mişarçay) debitə 120 min l/sutka olub, metan tərkibli Donuzitən mövcud olsa da, onlardan hazırda istifadə olunanı Ərkivandır.

Məzuniyyətimin ilk günlərində hansı ölkəyə getməyimin daha təhlükəsiz olmasını fikirləşib, Avropa ölkələrindən və dost Türkiyədənsə Azərbaycanın çoxsaylı dilbər guşələrindən biri, müalicəvi termal suyu ilə məşhur olan Masallının müalicəvi isti su kompleksinə getməyi özüm və ailəm üçün qərar verdim. Göstərilən kompleks Bakı şəhərindən Masallıyadək 259 kilometr məsafədə Masallı-Yardımlı avtomobil yolunun 11 kilometrliyində yerləşir. Göstərilən yolun sağ və sol tərəfi sıx enli yarpaq meşələri, çoxsaylı bulaqları, gözəlliyi ilə fərqlənən çoxsaylı istirahət kompleksləri biri-birlərini əvəz edir. İsti su istirahət müalicə kompleksinə ilk dəfə gəldiyimdən özüm-özümə fikirləşdim ki, keşkə müalicə üçün gəldiyim İstisu kompleksi də belə gözəl olaydı. Artıq çox gözlədiyimiz İsti suyun harada, neçə kilometr məsafədə yerləşməsi haqda çoxsaylı göz oxşayan reklamlar bizi İsti suya çatdırır.

İlk baxışdan çoxsaylı, ən bahalı, bir qismi xarici ölkə vətəndaşlarına məxsus minik avtomobillərini görüb, özlüyümdə fərəh hissi keçirirdim. Dünyanın 60-dan çox ölkəsində olduğum vaxtlarda ən böyük arzularımdan biri də o idi ki, ölkəmizdə digər xarici ölkələr ilə müqayisədə mineral və termal sular daha çox olsa da, niyə bizim ancaq son illərə qədər bu sərvətdən heç də Azərbaycan vətəndaşları öz istirahət və müalicələri üçün istifadə etməyib, xarici ölkələrdə istirahət edirdilər. Son illərdə bilavasitə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərilən sahəyə dair apardığı düşünülmüş, uzaqgörən siyasəti nəticəsində respublikanın, demək olar ki, bütün bölgələrində inkişaf dünyanın hər hansı bir ölkəsi ilə müqayisə edilə bilər.

Bölgənin iş adamı Hacı İldırım Allahyarov 1998-ci ildə şəfa mərkəzini özəlləşdirib və bundan sonra bu şəfa mərkəzinin öz simasını əsaslı şəkildə dəyişdirdiyi kimi onun adı da dəyişdirilərək Fatimeyi-Zəhra adını daşımağa başlayır. Hər il bu şəfa mərkəzi Azərbaycanın digər termal sularında müalicə edilənlərin sayına görə respublikamızda ən qabaqcıl yerdə durur, ildə orta hesabla 10-20 min Azərbaycan və xarici ölkə vətəndaşları sağlamlıqlarını bərpa edir. Burada xüsusi olaraq revmatizm, dəri xəstəlikləri, böyrək və sidik yolları, radikulit, prostat, hipertoniya, qaraciyər, öd yolları, bağırsaq, qadın xəstəlikləri, qadın, kişi sonsuzluğu, mədə xəstəlikləri və s. müalicə edilir. Bəs göstərilən sayda Azərbaycan və xarici vətəndaşların bu şəfa bulağına üz tutmalarının səbəbləri nədir? Yüksək dərəcəli xidmət, qiymətlərin həddən ziyadə ucuz olması və s.

Məqalə müəllifi eşidəndə ki, burada yaşamaq, gündə üç dəfə keyfiyyətli yemək, müxtəlif istiqamətli müalicə kursu, vannalardan istifadə və s. var, inanmadı ki, hər hansı bir xarici ölkədə belə ucuz qiymətlər olsun. Hərdən biz mətbuatda belə yazılara rast gəlirik ki, guya Gürcüstanda, Türkiyədə, Misirdə və s. ölkələrdə bir nəfərin 7-10 gün müddətinə minimum müalicə və ya istirahətinə 300-500 ABŞ dolları tələb olunursa, Fatimeyi-Zəhra adına şəfa ocağında 1-1,5 dəfə ucuz başa gəlir. Bu reklam yox, reallıqdır.

Kompleksin daxilində istirahət edənlər və müalicə olunanlar, çoxsaylı, çox nəfis tərtib edilmiş hər bir sahəyə dair reklam vasitələrinin köməyi ilə hər cür məlumat ala bilərlər.

Göstərilən kompleksdə Hacı İbrahimin rəhbərlik etdiyi 200 nəfərə qədər müxtəlif peşə sahibləri bura şəfa tapmağa və ya istirahətə gələnlərin qulluğunda dururlar. Onların bəziləri haqda tanışlıq məqsədi ilə aşağıdakıları xüsusi qeyd etmək olar. Bunlardan baş həkim — Azərbaycan Tibb Universitetinin yetirməsi Rauf Qurbanov bura müalicə məqsədi ilə gələnləri qəbul edir, onların nə kimi xəstəlik problemlərinin olması ilə ətraflı tanış olur və onlara hansı müalicə kurslarının keçmələrini tövsiyə edir. Onun qəbuluna gələnlərin çoxu bu mehriban, gülərüz həkimin verdiyi tövsiyələrə əməl edərək buradan şəfa tapırlar.

Ukraynada ali tibb təhsili almış yüksək tibbi bilikləri olan fizioterapevt həkim Qafar Şirinov orta nəslin nümayəndəsi kimi Bakı şəhərində yerləşən məşhur özəl klinikalardan birində çalışır. Şəfa mərkəzində o, xanımı ilə birgə bura gələnlərə şəfa verir. Onun qəbulunda hətta Çin Xalq Respublikası, İran, Rusiya və s. kimi ölkələrindən də gələnlər olur.

Müalicə mərkəzində ən çox müxtəlif növ masaj edənlər də çalışır. Bunlardan yüksək peşəkar, gülərüzlü, zarafatcıl bu xanımın möcüzəli əllərindən şəfa tapan insanlar hər gün səhər tezdən onun masaj etməsini arzu edərək növbə tuturlar. İradə xanım Bakı şəhərində məşhur özəl klinikalardan birində işləyib. Son bir neçə ildir ki, yay mövsümündə işini bu şəfa mərkəzində davam etdirir.

İnsanların sağlamlığının bərpasında xidməti olan işçilərdən biri də Azərbaycan aşıqlar birliyinin üzvü aşıq Vaqifdir. O, səhər tezdən kompleksin yeməkxanasında, sonra isə insanların müalicə kursları aldıqları ərazilərdə onları Azərbaycanın aşıq havaları və xalq musiqisi ilə feyziyab edir.

Mən şəfa mərkəzinin iaşə və s. sahələrdə çalışan işçiləri haqda ayrı-ayrılıqda bu məqaləmdə yazmasam da, onların hamısına dərin minnətdarlığımı bildirirəm. Qələmə aldığım bu şəfa mərkəzi haqda verilişlər hazırlamaq üçün bura müxtəlif televiziya kanalları gəlirlər. Mən və həyat yoldaşım riyaziyyat üzrə fəlsəfə doktoru Sevda xanımla "Xəzər" televiziya kanalına çox geniş müsahibə verdik. Qələmə aldığım bu şəfa mərkəzinin Avropa standartlarına cavab verməsi üçün aşağıdakı təklif və tövsiyələrimi vermək istəyirəm.

Hərarəti 30-55$^{0}$C debitə 1 600 min l/sutka olan bu şəfa bulağının suyundan bu gün tam səmərəli istifadə edilmir. Bunu nəzərə alaraq 170 yerlik bu kompleksin yaşayış binalarının, iaşə müəssisələrinin soyuq vaxtlarda qızdırılmasını təşkil etmək lazımdır. Termal suyun hərarətinin son 20-30 ildir ki, dəyişməz olmasını nəzərə alaraq kompleksin ərazisində bu suyun hesabına istixana təsərrüfatını yaratmaq daha məqsədəuyğun olardı.

Azərbaycanda termal su mənbələri içərisindən ən çox istifadə olan bu şəfa mənbəyinə qaz və telefon çəkilməsi ən vacib problemlərdən biridir. Bu məsələnin həllində iş adamı Hacı İldırıma aidi qurumlar tərəfindən kömək edilməsi məqsədəuyğun olardı.

Dünyada termal sularla zəngin olan ölkələrdə əhalinin çimməsi üçün üstü açıq və qismən üstü örtülü hovuzlar inşa edilir. Ölçüsündən və istifadə edənlərin sayından asılı olaraq hər belə hovuz ildə ölkəyə 5-10 milyon ABŞ dolları məbləğində gəlir gətirir.



Çox təəssüf ki, belə qiymətli şəfa ocağında inşa edilib, çimmək üçün istifadə olunan vanna və çox kiçik həcmli müalicəvi hovuzlarında yaşlı və şikəst insanların onlardan necə istifadə məsələləri nəzərə alınmayıb.

Yeni inşa edilən yataq sahələrinin mənzilləri keyfiyyətsiz tikildiyindən, insanların hündürdən danışmaları, televizorların səsi qonşuluqda yaşayanlara mane olur.

Dünyada mineral və termal suların yerləşdiyi yerlərdə mehmanxana, otel və kempiklər bilavasitə şəfa bulaqlarının yaxınlığında yerləşir. İstisu kompleksində isə əksinə, müalicə vasitələri insanların yaşadığı yerlərdən uzaqda yerləşir. Ona görə də yaşlı insanların müalicə kursunu götürmələri üçün bu çox çətinliklər yaradır. Məsələn, göstərilən termal suyun müalicə kabinaları Biləş çayının sağ sahilinə yaxın ərazilərdə yerləşir. Müalicəyə gələnlərin istifadə etdikləri yataq sahələri isə dağ ətəyində yerləşir. Xəstələr, yaşlı insanlar yataq yerlərindən müalicə qəbul etmək üçün enməkdə və çıxmaqda çətinlik çəkirlər. Yaxşı olar ki, xəstə və yaşlıların müalicə kursları qəbul etmələri üçün istirahət kompleksinin xüsusi avtomobili ayrılsın. Göstərilən tip insanlara enibqalxmalarına yardım edilməsini tövsiyə edirik. Yaxşı olardı ki, gələcəkdə inşa edilən yaşayış sahələri bilavasitə isti suyun çıxdığı əraziyə yaxın tikilsin.

Verilən yeməklər keyfiyyətli olsa da, hamı üçün eyni "menyu" əsasında bişirilir. Yaxşı olardı ki, gələcəkdə bununla bərabər pəhriz yeməkləri də hazırlansın. ■

Respublika.- 2016.- 23 iyul.- S. 6.